# Energetika naziri Pərviz Şahbazov jurnalistlərə müsahibə verib

“Energetiklər günü” münasibətilə keçirilən tədbir çərçivəsində energetika naziri Pərviz Şahbazov jurnalistlərin suallarını cavablandırıb. Ölkədə davamlı həyata keçirilən islahatların enerji sektorunu da əhatə etdiyini deyən nazir Energetika Nazirliyinin fəaliyyətinin daha səmərəli və effektiv şəkildə qurulması istiqamətində görüləcək tədbirlər barədə məlumat verib. Nazirliyin əlaqələndiricisi olduğu Strateji Yol Xəritələrinin icrası, eləcə də OPEC və qeyri-OPEC ölkələrinin noyabrın sonunda keçiriləcək toplantısında Azərbaycanın iştirakı və neft hasilatının azaldılması üzrə sazişin müddətinin uzadılması kimi məsələlərə münasibət bildirib.